Xalq qəzeti.- 2020.- 7 fevral.- S.11.

# Azərbaycan beynəlxalq reytinqlərdə ilbəil irəliləyir

***Son illərdə Azərbaycan sosial-iqtisadi sahədə böyük uğurlar qazanıb. Bunu ayrı-ayrı iqtisadi reytinq təşkilatları da həmişə yüksək qiymətləndiriblər. Son vaxtlar açıqlanmış "Qlobal İstedad Rəqabətliliyi İndeksi-2020" hesabatında da Azərbaycanın kifayət qədər irəlilədiyi qeyd olunub. Hesabata əsasən, Azərbaycan 132 ölkə arasında 45-ci yerdə qərarlaşıb və göstəricilərinə görə Baltikyanı respublikalar istisna olmaqla, digər postsovet ölkələrini qabaqlayaraq, ön mövqeyə çıxıb.***

Xatırladaq ki, "Qlobal İstedad Rəqabətliliyi İndeksi-2020" hesabatı dünyanın aparıcı universitetlərindən olan "İNSEAD" Biznes Məktəbi, "The Adesso Group" və "Tata Communications" tərəfindən hazırlanıb və məlumat mənbəyi kimi, "Doinq Business"in hesabatı, Qlobal Rəqabətlilik Hesabatı və beynəlxalq təşkilatların rəsmi nəşrlərindən istifadə olunub. Hesabatda maraqlı cəhət bundan ibarətdir ki, Azərbaycan illər üzrə irəliləyərək reytinqlərdə daha yüksək pillələrə qalxır. "Qlobal İstedad Rəqabətliliyi İndeksi-2020" hesabatında da qeyd edilir ki, "illər üzrə ümumiləşdirilmiş indeks"ə əsasən, ölkəmiz 2015-2017-ci illərdə 55-ci yerdə qərarlaşmışdısa, 2018-2020-ci illər üzrə bir neçə pillə də irəliləyərək, 42-ci yerə yüksəlib.

Bundan əlavə, hesabatın başqa bir bəndində qeyd edilir ki, Azərbaycan "yuxarı orta gəlirli ölkələr" arasında 4-cü yeri tutub.

Onu da qeyd edək ki, hesabatın məqsədi innovasiya, artım və rəqabətliliyi gücləndirmək üçün fərdlərin və komandaların potensialı və istedadı ətrafında qlobal müzakirə aparmaqdır. Əlbəttə, bütün reytinqlərdə ölkəmizin yüksək yerlər tutması, eləcə də ilbəil artan iqtisadi göstəricilər, ölkəni başdan-başa bürümüş sosial-iqtisadi, kadr və infrastuktur islahatlarının birbaşa həyatımızda hiss olunan nəticələri hamımızı sevindirir. Belə məlum olur ki, Azərbaycanın bu uğurları təkcə ölkə daxilində, xalqımız tərəfindən deyil, bütün dünyada izlənilir və ayrı-ayrı reytinq təşkilatları tərəfindən layiqli qiymətini alır. Bu da, təbii ki, Azərbaycan vətəndaşı olaraq, hər birimiz üçün qürurvericidir.

Amma onu da qeyd etməliyik ki, dünya miqyasında, beynəlxalq təşkilatların hesabatlarında yer alan bu uğurlar özbaşına qazanılmır. Qeyd olunmuş bu bəndlərin hər birinin arxasında ölkə ictimaiyyətinin, təbii ki, birinci növbədə, Azərbaycan Prezidenti İlham Əliyevin gərgin səyləri, danılmaz zəhməti durur. Bu nəticələrin əldə olunması üçün dövlət başçısının rəhbərliyi altında son 16 il ərzində nə qədər layihə və proqramlar qəbul edilib və həyata keçirilib, genişmiqyaslı islahatlar aparılıb. Bütün bunlar barədə elə Prezident İlham Əliyevin özü də dəfələrlə bəyan edib.




Azərbaycan lideri bu günlərdə "Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda bildirdi ki, bütövlükdə keçən il ölkəmiz uğurla inkişaf edib. Azərbaycan inkişaf, sabitlik yolu ilə irəliləyib. Həyata keçirilən islahatlar cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Çünki bu islahatlar insanların həyat səviyyəsini yaxşılaşdırır, ölkəmizin iqtisadi inkişafını sürətləndirir, mövcud olan xoşagəlməz problemlərin həllində çox önəmli rol oynayır. Azərbaycanda həyata keçirilən islahatlar düşünülmüş siyasətdir. Həm iqtisadi, həm siyasi sahədə aparılan islahatlar xalqımızın, dövlətimizin maraqlarına xidmət edir. Əsas məqsəd dövlətimizin möhkəmlənməsi, xalqımızın daha yaxşı yaşaması, sabitliyin təmin edilməsidir.

Xatırladaq ki, təkcə keçən il Azərbaycan iqtisadiyyatı 2,2 faiz artıb. Sənaye istehsalı 1,5 faiz yüksəlib. Qeyri-neft sektoru 14 faizdən çox artıb. Burada, əlbəttə ki, keçən il istismara verilmiş nəhəng sənaye müəssisələrinin fəaliyyətə başlaması, eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması xüsusi rol oynayıb. Prezident deyib: "Biznes mühitinin yaxşılaşdırılmasını Dünya Bankı da qeyd edir. "Doing Business" hesabatında Azərbaycan keçən il 20 ən islahatçı ölkə sırasına daxil edilibdir. Əlbəttə ki, bütün biznes qurumları bunu görür, hiss edirlər. Vergi və gömrük inzibatçılığı, biznes dairələrinə göstərilən dövlət dəstəyi, əlbəttə ki, qeyri-neft sənayesində də özünü büruzə verir. Beləliklə, 14 faizdən çox artan qeyri-neft sənayemiz yeni iş yerlərinin yaradılması deməkdir. Qeyd etməliyəm ki, keçən il 98 min yeni iş yeri yaradılmışdır. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bu, daimi proses olmalıdır. Çünki Azərbaycanda əhali yüksək templərlə artır və iqtisadiyyat, iqtisadi inkişaf, o cümlədən iş yerlərinin yaradılması demoqrafik inkişafı daim üstələməlidir. Buna görə biz daim bu məsələyə xüsusi diqqət verməliyik. Ancaq o da həqiqətdir ki, hər bir iş yerinin yaradılması üçün həm dövlət, həm də özəl sektor tərəfindən böyük vəsait tələb olunur. Çünki iş yerlərinin yaradılması elə boş yerə olmur, gərək infrastruktur, şərait, imkanlar olsun. Özəl sektor, əlbəttə ki, iş yerlərini yaradan əsas sektor olaraq öz sözünü deyir və deməlidir".

Prezident İlham Əliyev dünyada ölkəmizin əhəmiyyətinin, rolunun artdığını və Davos Ümumdünya İqtisadi Forumu çərçivəsində Azərbaycana yüksək münasibət göstərildiyini də xüsusilə qeyd edib. Belə ki, Davos Forumu ilə Azərbaycan arasında Dördüncü Sənaye İnqilabı üzrə Bakıda regional mərkəzin yaradılması təklif edilib. Bu, əlbəttə, çox əlamətdar hadisədir. Çünki Davos Ümumdünya İqtisadi Forumu dünyada həm siyasi, həm də iqtisadi sahədə bir nömrəli forumdur və Cənubi Qafqazda, Orta Asiyada Azərbaycanı mərkəz kimi seçmək, əlbəttə, böyük hadisədir.

Azərbaycan lideri və forumun prezidenti bununla bağlı niyyət protokolunu imzalayıblar. Beləliklə, Dördüncü Sənaye İnqilabında Azərbaycan lider olmalıdır. Prezident bu barədə deyib: "Davos Forumu bizi lider kimi görür, biz də lider olmalıyıq. Ona görə ki, bu, gələcək inkişafımız deməkdir. Biz elmi tərəqqini, inkişafı təmin etməliyik, ölkəmizi gələcəyə aparmalıyıq, müasirləşdirməliyik. Beləliklə, hesab edirəm ki, bu hadisə bizim növbəti uğurumuzdur, növbəti qələbəmizdir. Əminəm ki, bundan sonra qələbələrimizin sayı çox olacaq".

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***